UOT: 33.336

*Zaur Ədalət oğlu ƏSƏDZADƏ*
*Azərbaycan Kooperasiya Universiteti*
*doktorant, zaur.esedzade.1130@gmail.com*
*10.30546/1.72.2024.2*

# RƏQABƏTQABİLİYYƏTLİ İSTEHSAL DAVAMLI İNKİŞAFI ŞƏRTLƏNDİRİR

*Xülasə*

**Tədqiqatın məqsədi** – təsərrüfat subyektlərinin, dolayısıyla ölkə iqtisadiyyatının davamlı inkişafının təmin olunması məqsədilə istehsalda rəqabətqabiliyyətliliyin inkişaf istiqamətlərinin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** – araşdırma zamanı sistemli və kompleks yanaşma, induksiya və deduksiya metodlarından istifadə edilib, habelə istehsal sahələrinin iqtisadi inkişafa təsiri müxtəlif aspektlərdən müqayisəli təhlil edilib və müvafiq ümumiləşdirmələr aparılıb.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – alınmış nəticələrdən, irəli sürülmüş təklif və tövsiyələrdən nəzəri və praktiki problemlərin həll olunmasında, eləcə də istehsal sahələrinin inkişafında istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – müasir dünya iqtisadiyyatının reallıqları, qlobal məkanda baş verən tendensiyalar və ölkənin iqtisadi imkanları nəzərə alınmaqla rəqabətqabiliyyətli istehsalın təmin olunması üzrə təklif və tövsiyələrin işlənib hazırlanmasından ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə istehsalın səmərəliliyi baxımından menecerlərin rolunun əhəmiyyətliliyi vurğulanmış, 15 ölkədə rəqabətqabiliyyətli istehsalın təmin olunması ilə ölkə iqtisadiyyatının nə dərəcədə inkişaf etməsi cədvəl ilə göstərilmişdir. Rəqabətqabiliyyətliliyin davamlı inkişaf üçün zəruri olmasının əsaslandırılması və rəqabətqabiliyyətli istehsalın davamlı inkişafın şərti kimi geniş təhlili tədqiqatın orijinallığını ifadə edir.

***Açar sözlər: istehsal, sağlam rəqabət, davamlı inkişaf, müəssisə iqtisadiyyatı, ölkə iqtisadiyyatı, insan resursları, 3R prinsipi.***

## *Giriş*

Məqalədə rəqabətqabiliyyətli məhsul istehsalı ilə məşğul olan təsərrüfat subyektlərinin davamlı inkişaf yolu ilə paralel surətdə hərəkətindən bəhs edilir. Yəni, bazarda rəqib məhsullar qarşısında rəqabətə davam gətirə bilən məhsul, öz növbəsində müəssisənin də bazarda ön pillələrə addımlamasına zəmin yaradır. Bundan başqa, rəqabətqabiliyyətli istehsalın təmin olunması, ölkənin xarici bazarda güvənliliyini artırmaqla, ölkəyə yeni investorların cəlb edilməsini şərtləndirməsindən və beləliklə, rəqabətə davamlı məhsul istehsalının həm müəssisənin fərdi iqtisadiyyatına, həm də dolayısıyla ölkə iqtisadiyyatına öz əvəzsiz töhfəsini verməsindən bəhs edilir. Qloballaşan iqtisadiyyatda qabaqcıl ölkələrin inkişaf xüsusiyyətlərinə nəzər yetirdikdə onların rəqabətqabiliyyətli məhsul istehsal edərək dolayısıyla ölkələrini rəqabətqabiliyyətli etməklə, mikromühitdə bazarda, makromühitdə isə regionda liderliyini təmin etdiklərini görə bilərik. Müəllifin fikrincə, davamlı inkişafı özlərinə prioritet məqsəd kimi götürmüş təsərrüfat subyektləri istər yeni istehsal edilmiş texnoloji avandanlıqların istehsalda tətbiqi ilə, istər müəssisədə fəaliyyət göstərən kadrların təlim və digər metodiki vasitələrlə inkişafının təmin edilməsi yolu ilə və istərsə də daha keyfiyyətli məhsul istehsal etməklə digər oxşar məhsul istehsal edən rəqib müəssisələrdən öz müsbət cəhətləri ilə fərqlənə bilərlər. Yalnız bu halda həmin təsərrüfat subyektləri rəqabətqabiliyyətliliklərini təmin etməklə davamlı inkişafı özləri üçün əlçatan etmiş olacaqlar. Qeyd edilənlər ilə yanaşı məqalədə davamlı inkişafa nail olmaq üçün müəssisənin səmərəli fəaliyyət göstərməsi və müəssisədə fəaliyyət göstərən kadrların həmin təsərrüfat subyektlərindən məmnunluğunun önəmindən də bəhs edilir. Müəllifin fikrincə, istənilən təsərrüfat subyektində fəaliyyət göstərən işçilər, çalışdığı şərtlərdən və iş mühitdən qeyri-məmnundursa orada istehsal etdiyi məhsul nə qədər rəqabətqabiliyyətli olursa-olsun, müəssisənin səmərəliliyini aşağı salmaqla, uzunmüddətli dövrdə hətta təsərrüfat subyektinin iflasına da səbəb ola bilər. Bu baxımdan müəssisənin davamlı inkişafının təmin olunması üçün

menecerlər koordinasiyalı şəkildə fəaliyyət göstərməlidirlər. Yəni maliyyə meneceri, insan resursları meneceri və digər idarəçilərin bir-birindən əlaqəsiz fəaliyyət göstərmələri yekunda müəssisənin səmərəliliyini azaltmaqla rəqabətqabiliyyətliliklərinə təsir edəcəkdir. Bu səbəblə təsərrüfat subyektlərinin davamlı inkişafa fokuslanması onların hərtərəfli inkişafını şərtləndirir.

**Menecerlər - rəqabətqabiliyyətli istehsalın önəmli faktoru kimi**

Təsərrüfat subyektlərinin rəqabətqabiliyyətli məhsul istehsalı ilə məşğul olmaqları üçün sözün əsl mənasında onlara rəqabətqabiliyyətli idarəçilər lazımdır. İdarəçilərin mükəmməl idarəçilik qabiliyyəti, işçiləri əldə etdikləri uğurlarına müvafiq olaraq mükafatlandırma və sair prosesləri uğurla həyata keçirərək fəaliyyət göstərdikləri müəssisələrin rəqabətqabiliyyətli məhsul istehsal etmələri üçün müəssisədə əlverişli mühit formalaşdırırlar. İqtisadi ədəbiyyatlarda menecerlər ilə bağlı çoxsaylı təriflər mövcuddur. Bütün tərifləri ümumiləşdirsək deyə bilərik ki, menecer ingilis sözü olub idarə edən, idarəçi deməkdir. Menecerlər bəzən təsərrüfat subyektindəki hər hansı bir departamenti, bəzən isə müəssisədəki ümumi idarəetməni həyata keçirən şəxslərdir. Beynəlxalq təcrübəyə istinad edərək demək olar ki, hər bir təsərrüfat subyektində azı 1 menecer olur. İri təsərrüfat subyektlərində isə menecerlərin sayı maliyyə meneceri, satınalma meneceri, insan resursları meneceri və sair olmaqla ən az 3 menecerdən ibarət olur. Müəssisədə fəaliyyət göstərən menecerlərin səriştəsizliyi və o cümlədən qeyri-peşəkar fəaliyyəti təsərrüfat subyektinin bütün bölmələrinin peşə fəaliyyətinə ya birbaşa, ya da dolayısıyla sirayət edir [3]. Təsərrüfat subyektinin rəqabətqabiliyyətli məhsul istehsal etməsi üçün işçilərin səmərəli fəaliyyət göstərməsi, dolayısıyla onların səmərəli idarə edilməsi lazımdır. Bu baxımdan rəqabətqabiliyyətli menecerlər aşağıdakı kimi bir sıra zəruri keyfiyyətlərə malik olmalıdırlar:

- ✓ fiziki keyfiyyətlər - aktivlik, enerjili, sağlamlıq, güclülük;
- ✓ şəxsi keyfiyyətlər - uyğunlaşa bilmək, özünə inamlı olmaq, nüfuzluluq, müvəffəqiyyətə cəhd etmək;
- ✓ intellektual keyfiyyətlər – zəka, lazımi qərarı lazımi zamanda qəbul etməyi bacarmaq, intuisiya, yaradıcılıq başlanğıcı;
- ✓ qabiliyyət keyfiyyəti - təmas qurmaq, asanlıqla ünsiyyət qurmaq bacarığı, taktiki olmaq, diplomatik olmaq.

Qeyd edilən keyfiyyətlərin menecerdə olması onun heç də mükəmməl idarəçiliyini əsaslandırmır. Bunun üçün menecerlərin xüsusi keyfiyyətlər ilə yanaşı aşağıda qeyd edilən bir sıra xüsusi bacarıqlara malik olması zəruridir:

- qəbul edilən qərarın siyasi nəticələrini nəzərə almaq bacarığına;
- sahibkarlıq fəaliyyətində insan ehtiyatları amilinin axtarılması və istifadəsi qabiliyyəti və ona meyilliyinə;
- elmi-texniki tərəqqinin yaxşı nailiyyətlərindən effektli istifadə etmək bacarığına;
- müəyyən mərhələdə ictimai əhəmiyyət kəsb edən məqsədlərə nail olmaq naminə öz şəxsi maraqlarından imtina etməyə hazır olmağa;
- psixoloji təhsilə; (menecerlər mütəmadi olaraq insanlar ilə işlədiyi üçün psixoloji təhsilə malik menecerlər digər menecerlər ilə müqayisədə daha effektiv və səmərəli fəaliyyət göstərirlər);
- sosial ədalət prinsiplərinə meyillilik və onu rəhbər tutmaq istəyinə;
- öz üzərinə məsuliyyəti götürmək bacarığına;
- öhdəliyində olduğu iş barədə tənqid etmək və tənqidi iradlar qəbul etmək qabiliyyətinə;
- daima təşəbbüs və zirəklik (cəldlik) göstərmək qabiliyyətinə;
- işgüzarlıq (lazımi vaxtda lazımınca işləyə bilmək);
- maneələri aradan götürməyə, iradə və çeviklik göstərməyə cəhd etmək qabiliyyətinə;
- məntiqi fikirləşmək qabiliyyətinə;
- işin xeyrinə olaraq öz mövqeyinə əks olan təkliflərdən istifadə etmək bacarığı;
- effektiv iş metodlarının köməyi ilə həddən artıq yüklənməkdən müdafiə olunmaq vasitəsi kimi stresə qarşı davamlı olmaq qabiliyyətinə.

Menecerlər ilə bağlı qeyd edilməli digər önəmli bir nüans isə, idarə etməli olduqları resurslardır.

Menecerlərin idarə etmək iqtidarında olduqları 4 növ resurs vardır ki, həmin resursların səmərəli idarə olunması müəssisənin rəqabətqabiliyyətliliyinin təmin edilməsilə məqsədlərinə nail olmağa əsaslı zəmin yaradır. Bunlardan birincisi maliyyə resursları, ikincisi fiziki resurslar, üçüncüsü informasiya resursları, dördüncüsü və ən önəmlisi insan resurslarıdır. Maliyyə resurslarına pul, pul ekvivalentləri, qiymətli kağızlar, fiziki resurslara isə maşınlar, binalar, alətlər, kompüterlər və başqa texniki avadanlıqlar aiddir. İnformasiya resurslarına hesabatlar, uçot sənədləri, əmrlər və başqa normativ səndlər aid edildiyi halda yekunda ən önəmli resurs sayılan insan resurslarına isə müəssisədə fəaliyyət göstərən hər bir işçi aiddir. Qeyd edilən resurslardan daha effektiv və səmərəli şəkildə istifadə etməyi bacaran menecerlər öz sahələrində müvəffəqiyyət qazanırlar. Peşəkar menecerlər qərarvermə prosesi zamanı yuxarıda qeyd edilən bütün növ resursları və mövcud situasiyanı nəzərə alaraq müvafiq addımlar atmalıdırlar. Qərb ədəbiyyatına əsasən yuxarıda qeyd olunan resurslardan əlavə olaraq menecerlərin idarə etməli olduqları ən önəmli resurslardan biri də zamandır. Zaman hər bir müəssisə üçün önəmli resursdur. Zamanında qərarvermə bacarığı olan menecerlər çalışdıqları müəssisənin üzləşəcəyi potensial risklərdən tamamilə yayına bilərlər. Bu baxımdan vaxtın düzgün idarə olunması çox əhəmiyyətlidir.

Əsl menecerlər yuxarıda qeyd edilən bacarıq və keyfiyyət amillərinə malik olmaqla, effektiv fəaliyyət göstərərək təsərrüfat subyektinin ümumi səmərliliyinə öz müsbət töhfələrini verə bilərlər. Keyfiyyətli menecerlər təsərrüfat subyektinin maraqlarına zidd olacaq hər hansı bir risk amilini öncədən proqnozlaşdırmalıdırlar. Onlar riskləri proqnoz edərkən ya onlardan birbaşa yayınma metodlarını təkmilləşdirməli, ya da risklə üzləşmək qaçınılmazdırsa, riskin yarada biləcəyi neqativ təsirlərin miqdarını minimuma endirmək üçün planlar qurmalıdırlar. Qeyd edilənlər ilə yanaşı menecerlər öz-özlüyündə həm də lider olmalıdırlar. Onlar tabeliyində olan işçilərin təhlükəsiz və münbit əmək şəraitində fəaliyyət göstərmələri üçün əlindən gələni etməklə yanaşı, onların fərdi inkişafı üçün müxtəlif növ təlimlər təşkil etməli və bu yolla heyətin səmərəli fəaliyyətinə töhfə verməlidirlər. İşçilərin məmnun halda fəaliyyət göstərməsi yekunda müəssisənin özü üçün mühüm əhəmiyyət kəsb edir. Nəzərə almaq lazımdır ki, əgər işçi iş mühitindən və şərtlərdən məmnun deyilsə öhdəsində olan işi səmərəli şəkildə həyata keçirə bilməyəcəkdir. İşçilərin idarə edilməsi və onların düzgün motivasiya edilməsi ilə bağlı menecerlər insan resursları menecerləri adlanırlar. İnsan resursları menecerləri yalnız müəssisəyə lazımi bacarıqlara malik olan kadrların tapılması ilə deyil, hal-hazırda müəssisədə fəaliyyət göstərən kadrların da performans dəyərləndirməsini effektiv şəkildə həyata keçirmək iqtidarında olmalıdırlar. Qeyd edilənlərlə bağlı Qərb ədəbiyyatlarında insan resursları menecerlərinin prinsipləri 3 qrupda ümumiləşdirilmişdir və buna 3R prinsipi də deyirlər:

- right person (düzgün insan);
- right time (düzgün zaman);
- right place (düzgün məkan):

Qeyd edilən 3R prinsipi yuxarıda qeyd edilən right person (düzgün insan), right time (düzgün zaman) və right place (düzgün məkan) abreviaturasından formalaşmışdır və düzgün insanın düzgün zamanda düzgün mövqeyə təyin olunmasını ehtiva edir. Yəni, uğurlu insan resursları menecerləri fəaliyyət göstərdikləri təsərrüfat subyektlərindəki kadr ehtiyacını qarşılamaq üçün düzgün kadrı, düzgün zamanda, düzgün posta təyin etməlidirlər [3]. Yuxarıda qeyd edilənlərə istinad edərək menecerlərin vəzifələrini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Təsərrüfat subyektinin perspektivlərinin, cari məqsədlərinin və o cümlədən müəssisədə çalışanların vəzifələrinin müəyyən olunması;
2. Funksiyaların, tapşırıqların bölüşdürülməsi, normaların müəyyən olunması, tabelikdə olanların təlimatlandırılması (instruktajı), lazımi şəraitin yaradılması, motivləşdirmə;
3. Tabedə olanlar, özü ilə tabedə olanlar arasında həm birbaşa, həm də əks istiqamətdə kommunikasiya əlaqələrinin yaradılması və onların saxlanılması;
4. İşçi heyətinin hər birinə ayrı-ayrılıqda olmaqla bütövlükdə fəaliyyətinə nəzarət, qiymətləndirmə və təhlil olunma;
5. Tabeliyində olan heyətin öyrənilməsi, onun peşəkarlıq səviyyəsinin qaldırılması;

6. Yığıncaqların, müşavirələrin keçirilməsi və müşavirələrdə iştiraketmə;

7. İşgüzar ünsiyyət, təşkilatın menecerləri, sifarişçiləri, malgöndərənləri və digərlərlə şəxsən və telefon vasitəsilə söhbətlər və danışıqlar;

8. Sənədlərlə iş;

9. Şəxsi dəyərlərin, məqsədlərin müəyyən olunması, planlaşdırma, kommunikativ qabiliyyətin inkişaf etdirilməsi, şəxsi nəticələrin təhlili və sair.

Araşdırmalar bunu göstərir ki, təsərrüfat subyektlərinin rəqabətqabiliyyətli məhsul istehsal etmək üçün innovativ məhsulların istehsalda tətbiqi mühüm nüansdır. Bu səbəblə təsərrüfat subyektində fəaliyyət göstərən texniki təminat üzrə menecerlər daima qlobal aləmdə baş verən yenilikləri yaxından izləməli. Nou-hauların müəssisədə tətbiqi üçün kifayət qədər yenilikçi və motivasiyalı olmalıdır [9, s. 37-45]. Qeyd edilən departamentlərə müvafiq menecerlər bir-birləri ilə koordinasiyalı şəkildə fəaliyyət göstərməlidirlər. Daha geniş izah etsək, təsərrüfat subyekti rəqabətqabiliyyətliliyini təmin etmək, daha səmərəli fəaliyyət göstərmək və daha keyfiyyətli məhsul istehsal etmək istəyirsə yeni texnologiyaların müəssisədə tətbiqinə əhəmiyyət verəcəkdir. Lakin bunu da qeyd etmək lazımdır ki, müəssisədəki texniki avadanlıqlar nə qədər öncül olursa-olsun, yekunda onun başlama düyməsini sıxan insandır. Belə ki, müəssisələr intensiv inkişafa qədəm qoymaqla həm müəssisənin texniki təchizatında müəyyən yeniliklər aparmaq və o cümlədən müəssisədə fəaliyyət göstərən kadrların potensial imkanlarının genişləndirilməsi, performans dəyərləndirilməsi və müxtəlif təlimlərdə iştirakını təmin etməklə daha perspektivli kadr hazırlamış olacaqlar. Fərdi inkişafına şərait yaradılan işçi öz müəssisəsinə loyallığı ilə daha səmərəli fəaliyyət göstərə biləcək və dolayısıyla həmin təsərrüfat subyekti gələcəkdə davamlı inkişafına xələl gətirə biləcək müəssisədaxili konflikt və sair xoşagəlməz halların qarşısını alacaqdır. Çalışdığı müəssisədə fəaliyyət göstərən məmnun işçi öz potensialını tamamilə ortaya qoymağa çalışacaqdır ki, bu da yekunda müəssisənin səmərəli fəaliyyətinə zəmin yaradacaq. Qeyd edilənləri ümumiləşdirsək bu nəticəyə gəlmək olar ki, hər bir menecer digər departamentdəki menecerlər ilə əlaqəli fəaliyyət göstərməklə, vəhdət şəkildə müəssisələrinin rəqabətqabiliyyətliliklərini təmin edə bilərlər.

**Sağlam rəqabət – Davamlı inkişafın əsas təməli kimi**

Rəqabətlə bağlı iqtisadi ədəbiyyatlarda kifayət qədər təriflər mövcuddur. Lakin, hər kəsin ortaq səsləndirdiyi fikir ondan ibarətdir ki, rəqabət "yarış" olub eyni məshulu istehsal etməklə eyni bazarda iştirak edən iki və ya daha çox müəssisənin həmin məhsullar üzərindən qiymətlərin daha da optimallaşdırılması, məhsulun keyfiyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması və başqa yollar ilə bir-birindən fərqləndirilməsi prosesidir. Rəqabət, təsərrüfat subyektlərinin məhsul (xidmət) istehsalı ilə birbaşa və ya dolayı yolla bazar subyektlərinə etdiyi mümkün təsirlər kimi də nəzərdən keçirilir [5, s.176-178]. Bir sözlə, rəqabət iqtisadiyyatın istənilən sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri arasında kimin ən yaxşı məhsulu istehsal etməsinin qeyri-müəyyən olduğu zamanda həqiqətin ortaya çıxarılması yoludur. Adam Smit rəqabəti insanlar arasında iqtisadi fəaliyyət kimi təsvir edirdi. Onun nəzəriyyəsinə görə rəqabət anlayışı istehsalçıların və istehlakçıların nöqteyi-nəzərindən nəzərdən keçirildikdə, istehsalçılar rəqabət apardıqları təsərrüfat subyektlərindən daha aşağı qiymətə daha çox məhsul sataraq gəlirliliklərini artırmağı hədəfləyirlər. İstehlakçılar isə tələbatlarını daha çox və daha ucuza ödəmək uğrunda mübarizə aparırlar [1; 3; 7].

Məşhur ingilis alim A.Marşalın nəzəriyyəsinə görə, rəqabət bir insanın digəri ilə yarışmasını, o cümlədən nəyinsə alınması və ya satılması uğrunda yarışmasını əks etdirir. Bu yanaşmada insan dedikdə bazar subyekti nəzərdə tutulur. Həqiqətən də rəqabət maddi və ya qeyri maddi resursların satılması və ya alınması uğrunda baş verən mübarizədir. Təbiidir ki, bu mübarizə yekunda istehlakçıya müsbət təsir edir. Düşünsək ki, bazarda münbit rəqabət mühiti var və sahibkarlar rəqabət nəticəsində istehsal etdikləri məhsulların qiymətini də rəqabətə daxil edib minimuma endirməyə çalışırlar, bu zaman qeyd etdiyimiz kimi "yarışdan" istehlakçılar qazanclı çıxmış olacaq. Biznes mühitində davamlı şəkildə baş verən rəqabət təsərrüfat subyektlərini istehsal etdiyi məhsullarda yeniliklər etməsinə, satış qiymətlərini stimullaşdırmasına və sair rəqabətliliyi təmin edəcək addımlar atmasına sövq edir [4]. Onu da qeyd etmək lazımdır ki, rəqabətqabiliyyətlilik münbit

mühitdə formalaşa bilər. Bir təsərrüfat subyekti nə qədər rəqabətqabiliyyətli olsa da, həmin rəqabət qabiliyyətli məhsulların nümayişi üçün münbit mühit olması lazımdır. Məsələn, uğurlu bir basketbolçu keyfiyyətli basketbol meydançası olmadığı təqdirdə öz potensialını tamamilə dolğun nümayiş etdirə bilməyəcək. Basketbolçunun bütün potensialını ortaya qoyması üçün basketbol meydançası lazımdır. Buradan o nəticəyə gəlmək olar ki rəqabət ilə yanaşı rəqabət mühiti də və o cümlədən bazar da təsərrüfat subyektlərinin, iş adamlarının yarış meydançasıdır. Basketboldan fərqli olaraq, bu yarışların “oyunçularından” daha çox istehlakçılar qazanır.

Araşdırmalar göstərir ki, rəqabətqabiliyyətli istehsalı təşviq edən ölkələrin iqtisadiyyatı azad rəqabətin mövcud olmadığı ölkələrə nəzərən daha dinamik inkişaf edirlər [2]. Cədvəl 1-də 2019-2023-cü illər aralığında rəqabətqabiliyyətli məhsul istehsalı ilə məşğul olan ölkələrin illər üzrə sıralamaları qeyd edilmişdir.

**Cədvəl 1.**

**2019-2023-cü illər üzrə dünya ölkələrinin rəqabətqabiliyyətlilik göstəricilərinə görə sıralaması (azalan sıra ilə)**

| № | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| 1. | Sinqapur | Sinqapur | İsveçrə | Danimarka | Danimarka |
| 2. | Çin | Danimarka | İsveç | İsveçrə | İrlandiya |
| 3. | ABŞ | İsveçrə | Danimarka | Sinqapur | İsveçrə |
| 4. | İsveçrə | Hollandiya | Hollandiya | İsveç | Sinqapur |
| 5. | BƏƏ | Çin | Sinqapur | Çin | Hollandiya |
| 6. | Hollandiya | İsveç | Norveç | Hollandiya | Tayvan |
| 7. | İrlandiya | Norveç | Çin | Tayvan | Çin |
| 8. | Danimarka | Kanada | Tayvan | Finlandiya | İsveç |
| 9. | İsveç | BƏƏ | BƏƏ | Norveç | ABŞ |
| 10. | Qətər | ABŞ | ABŞ | ABŞ | BƏƏ |
| 11. | Norveç | Tayvan | Finlandiya | İrlandiya | Finlandiya |
| 12. | Lüksemburq | İrlandiya | Lüksemburq | BƏƏ | Qətər |
| 13. | Kanada | Finlandiya | İrlandiya | Lüksemburq | Belçika |
| 14. | Finlandiya | Lüksemburq | Kanada | Kanada | Norveç |
| 15. | Tayvan | Avstriya | Almaniya | Almaniya | Kanada |

*Cədvəl araşdırmalar əsasında müəllif tərəfindən tərtib edilib.*

Cədvəldən də göründüyü kimi, 2019-cu il üzrə müvafiq olaraq ilk üçlüyü bölüşən Sinqapur, Çin və Amerika Birləşmiş Ştatlarının yerini 2023-cü ildə müvafiq olaraq Danimarka, İrlandiya və İsveçrə tutur. Danimarka 2019-cu ildən 2023-cü ilədək 7 pillə, İrlandiya 5 pillə, İsveçrə isə 1 pillə irəliləyərək hər biri müvafiq olaraq I, II və III yerlərdə qərarlaşmışdırlar. Qeyd edilən ölkələrin inkişaf dinamikası bizə onu deməyə əsas verir ki, əlverişli rəqabət mühitinin yaradılması, bilavasitə dövlət əhəmiyyəti daşıyır. Çünki, əlverişli rəqabət mühitinin formalaşdırılması üçün dövlət dəstəyi mövcud olan ölkələrdə, qlobal bazarda güvən qazandığı üçün investorlar baxımından cəlbedici hesab olunur. İnvestorların həmin ölkəyə cəlb edilə bilməsi iqtisadiyyatın şaxələnməsinə, işsizlik probleminin həll olunması ilə dövlətin həm sosial, həm də iqtisadi yükünün azaldılmasına səbəb olur. Bu baxımdan hər bir dövlət iqtisadi azadlığa nail olmaq niyyətindədirsə, əlverişli biznes mühiti ilə yanaşı əlverişli rəqabət mühitinin formalaşdırılması üçün müvafiq qanunverici baza formalaşdırmalıdırlar [1;3]. “Trade Economics”-in göstəricilərinə əsasən deyə bilərik ki, əlverişli rəqabət mühiti formalaşdırmış və rəqabətqabiliyyətli məhsul istehsal edən inkişaf etmiş ölkələrin xarici bazardan asılılığı, işsizliyin səviyyəsi, ölkənin xarici borcu azalmış, inflyasiya göstəriciləri isə optimallaşmışdır.

Görkəmli alim M. Porter rəqabəti istehsal, investisiya, yenilik və ya texnoloji üstünlük və sərvət əsaslı olmaqla dörd müxəlif aspektdən nəzərdən keçirmişdir. İstehsal amilləri əsasında rəqabət qabiliyyətinin inkişafının və rəqabət üstünlüyünün əldə edilməsinin əsasında ölkənin resurslara

(təbii işçi qüvvəsi və s.) malik olma və onlardan səmərəli istifadə olunma dərəcəsi (istehsal məsrəfləri; qiymətləri, valyuta məzənnələri) dayanır. Beynəlxalq təcrübə göstərir ki, rəqabət qabiliyyətinin yeganə resursu kimi yalnız istehsal amillərinin əsas götürülməsi beynəlxalq rəqabət şərtlərinə cavab verən iqtisadiyyat sahələrini kəskin şəkildə məhdudlaşdırır. Həmin mərhələdə iqtisadiyyat tələbin və qiymətlərin kəskin dəyişməsinə səbəb olan dünya iqtisadi böhranlarına olduqca həssas olur. Mövcud olan istehsal amilləri tükəndikdə isə vəziyyət fövqəladə dərəcədə kəskinləşir.

İnvestisiyaya əsaslanan rəqabət qabiliyyəti mərhələsi texnoloji inkişaf mərhələsi də adlandırılır. Bu məsələdə iqtisadiyyatın texnoloji üstünlüyü müəssisələrin müasir, səmərəli avadanlığa və texnologiyaya intensiv kapital qoyuluşlarını həyata keçirmələrinə əsaslanır. Onları dünya bazarından əldə etmək olar. Bu zaman investisiyalar, eyni zamanda lisenziyaların satın alınmasına, müştərək müəssisələrin yaradılmasına və rəqabət qabiliyyətinin yüksəldilməsinin digər vasitələrinə yönəldilir. İnvestisiyanın həcminin artması yeni, qabaqcıl amillərin yaradılmasına və müasir infrastrukturun inkişafına səbəb olur.

İqtisadi ədəbiyyatlarda texnoloji üstünlük - bilik ehtiyatı, texnoloji ehtiyat, investisya və s. ehtiyatların məcmusu kimi nəzərdə tutulur. Onlar bir və ya bir neçə sahədə texnoloji irəliləmədən tutmuş, ölkənin qlobal məkanda liderliyinə səbəb olacaq müasir rəqabət üstünlüyünün bütün sektorlarını əhatə edir. Ölkə iqtisadiyyatında sənaye strukturunun üstünlüyü elmi-texniki tərəqqinin tələblərinə cavab verən mütərəqqi strukturun mövcudluğu ilə əlaqədardır. Nəhayət, uğurlu iqtisadi inkişaf iqtisadiyyatın innovasiya yolu ilə inkişafına, yeni texnika və texnologiyanın mənimsənilməsinə şərait yaradan əlverişli iqtisadi, müvafiq olaraq sosial-siyasi mühitin olmasına əsaslanır. Texnoloji üstünlük əsaslı rəqabət zamanı nəzərdən qaçırılmamalı nüanslardan biri də insan kapitalına investisiya etməkdir [6, s.143-145]. Texnologiya əsaslı rəqabət zamanı müəssisələr nəinki öz avadanlıqlarını, o cümlədən yeni növ bilik və bacarlıqlara sahib, innovativ cihazları idarə etməyi bacaran kadr potensialının formalaşdırılmasına da önəm verməlidirlər. Buradan da o nəticəyə gəlmək olar ki, texnologiya əsaslı rəqabətin təsərrüfat subyektində tam təşəkkül tapması kadr potensialının təlimlərə cəlb edilməsi yolu ilə onların innovativ bacarıqlarının inkişaf etdirilməsi və ya müəssisəyə yeni kadrlar cəlb edilməsi ilə paralel həyata keçirilməlidir. Əks təqdirdə müəssisənin iqtisadi fəaliyyəti zamanı tətbiq ediləcək innovativ cihazların istifadəsi müəssisənin rəqabətqabiliyyətliliyi üçün bir rol oynamayacaq.

Yeniliklər əsasında rəqabət qabiliyyəti müxtəlif inkişaf səviyyəsində olan ölkələrdə baş verə bilər. Əvvəlcə bir sıra sahələr innovativ məhsulların istehsalda tətbiq edilməsilə rəqabət üstünlüyü əldə etməyə çalışırlar. Sonra təkmilləşdirmə prosesi digər sahələrə də yayılır. Daha dinamik və qabaqcıl iqtisadiyyat rəqabətqabiliyyətli sahələrin dairəsinin üfüqi və şaquli istiqamətdə genişlənməsinə və yeni xarakterlərin formalaşmasına şərait yaradır. Həmin prosesin sürəti həm yeni, həm də mövcud təsərrüfat subyektlərində işgüzar fəallığın canlanması dərəcəsindən asılıdır. XX əsrin 90-cı illərindən başlayaraq inkişaf etmiş və zəif inkişaf etmiş ölkələr arasında olan fərq əsas etibarı ilə texnoloji xarakter daşıyır. Müasir texnologiyalar həddən artıq mürəkkəb və bahalı olduğuna görə zəif inkişaf etmiş ölkələr onu nəinki yarada bilmirlər, hətta satın almaqda da çətinlik çəkirlər [4; 9].

Sərvət əsasında rəqabət, əvvəlki üç mərhələdən fərqli olaraq son nəticədə tənəzzülə aparır. İqtisadiyyatın hərəkətverici qüvvəsi artıq əldə edilmiş bolluqdur. Əsas problem ondan ibarətdir ki, əvvəldən yaradılmış sərvət əsasında hərəkət edən iqtisadiyyat öz sərvətini daha artıra bilmir. Bu mərhələdə bir çox səbəblər nəticəsində təsərrüfat subyektləri beynəlxalq rəqabətdə öz mövqelərini itirməyə başlayırlar. Rəqabətin zəifləməsi müəssisələrin yeniliklərə kapital qoyması üçün marağını azaldır.

### *Nəticə*

Aparılan araşdırmalardan bu nəticəyə gəlmək olur ki, ölkədə rəqabətqabiliyyətli istehsalın təmin edilməsi həm təsərrüfat subyektləri üçün, həm də ölkə iqtisadiyyatının səmərəli inkişafına zəmin yaradır. Bu qəbildən olan istehsalın həyata keçirilməsi istehlakçıların tələblərinin daha ucuz qiymətə daha keyfiyyətli məhsullar ilə qarşılanmasına, əhalinin məşğulluq səviyyəsinin optimallaşdırılmasına, investorların ölkəyə cəlb edilməsilə digər sahələrin də paralel olaraq inkişaf etdirilməsinə, yekunda ölkə əhalisinin rifahının artırılmasına və sair müsbət nəticələrə səbəb olacaq. Rə-

qabətqabiliyyətli istehsalın təmin edilməsində bir sıra amillərin üzərinə məsuliyyət düşür. Bunlardan ən önəmli ikisi dövlət və menecerlərdir. Dövlət rəqabətqabiliyyətliliyi təmin etmək üçün qanunverici bazanı formalaşdırmalı, menecerlər isə yuxarıda qeyd etdiyimiz prinsipləri öz fəaliyyətlərində tətbiq etməklə bu məqsədə nail ola bilərlər. Xüsusilə 3R prinsiplərinin yerinə yetirilməsi, düzgün insanların, düzgün zamanda, düzgün mövqeyə təyin olunması ilə nəticələnəcəkdir ki, bu da yekunda təsərrüfat subyektinin səmərəli və dinamik inkişafı ilə nəticələnəcəkdir. Məqalədə qeyd edilənlərdən ümumi nəticə olaraq bunu çıxarmaq olar ki, rəqabətə davamlı məhsul istehsal etmək istəyən təsərrüfat subyektləri həmin müəssisədə çalışan sıravi işçidən tutmuş, top menecerədək səmərəli menecmentini təmin etməlidir. Səmərəli idarəetmə dedikdə, düzgün insanın ən uyğun zamanda, lazımi mövqeyə təyin olunması ilə yanaşı, həm də müəssisədə fəaliyyət göstərən hər bir işçinin motivasiya edilməsi, performans dəyərləndirilməsinin şəffaf aparılması və işçilərin təlim və digər metodiki vasitələr ilə bilik və bacarıqlarının artırılmasının təmin edilməsini özündə ehtiva edir. Müəssisənin bahalı və keyfiyyətli texniki avadanlıqlara sahib olması, onun rəqabətqabiliyyətli məhsul istehsal edəcəyinə tam təminat vermir. Menecerlər unutmamalıdırlar ki, texniki avadanlıqlar nə qədər saz və yeni olursa-olsun, onu idarə edən insan faktorudur. Bu baxımdan təsərrüfat subyekti rəqabətli istehsal yolu ilə davamlı inkişafını təmin etmək istəyirsə, müəssisədəki insan kapitalını mütəmadi motivasiya etməli, innovativ məhsulların istehsala cəlbini stimullaşdırmalı və sair yollar ilə məqsədəmüvafiq addımlar atmalıdır.

## ƏDƏBİYYAT


1. Chron newsletters – The relationship between government and business entities, 2019- by Fred Wilham.
2. Courtright, J. (2017). Making Sense of Clusters: Regional Competitiveness and Economic Development, The Brookings Institution, Washington, DC.
3. European Journal of Research and Reflection in Management Sciences - Vol. 2 No. 2, 2014 ISSN 2056-5992. Contemporary mechanism of competition in the economy and in business - Dr. Slawomir Czarnowski
4. K.Paul (2014). Competitiveness: a Dangerous Obsession. Foreign Affairs, 73,No.2,28/44
5. M.Patrick. (2013). Competitiveness in a Globalised World: a Comment. Journal of International Business Studies, 37,176-178.
6. Performance Management and Appraisal Systems-HR Tools for Global Competitiveness, Sage Publications, London, UK, pp.173-99.
7. Richardson, R and Thompson, M (2014) The Impact of People Management Practices on Business Performance: A literature review, Institute of Personnel and Development, London
8. Scott E. (2018), The Difference. Princeton, NJ. Princeton University Press
9. T.B.William (2018). Competition, Innovation and Increasing Returns. Druid Working Papers, 96-10
10. https://www.researchgate.net/publication/316227722_The_Development_of_Service_Economy
11. https://ilostat.ilo.org/data/country-profiles/
12. https://www.theglobaleconomy.com/download-data.php



***Заур Адалят оглы Асадзаде***
***Азербайджанский Университет Кооперации, докторант,***
***zaur.esedzade.1130@gmail.com***


**Конкурентоспособное производство обеспечивает устойчивое развитие**

***Резюме***


**Цель исследования** – разработать направления развития конкурентоспособности производства в целях обеспечения устойчивого развития субъектов хозяйствования, а следовательно, и экономики страны.

**Методология исследования** – системный и комплексный подход, в ходе исследования были использованы методы индукции и дедукции, а также проведен сравнительный анализ влияния производственных территорий на экономическое развитие с различных аспектов и сделаны соответствующие обобщения.

**Актуальность исследования** – полученные результаты, предложения и рекомендации могут быть использованы при решении теоретических и практических задач, а также при развитии производственных направлений.

**Результаты исследования** – он заключается в разработке предложений и рекомендаций по обеспечению конкурентоспособного производства с учетом реалий современной мировой экономики, тенденций, происходящих в глобальном пространстве, и экономических возможностей страны.

**Оригинальность и научная новизна исследования** – в статье подчеркнута важность роли менеджеров в обеспечении эффективности производства, а степень развития экономики страны при обеспечении конкурентоспособного производства в 15 странах мира показана в таблице. Оригинальность исследования составляет обоснование необходимости конкурентоспособности для устойчивого развития и обширный анализ конкурентоспособного производства как условия устойчивого развития.

***Ключевые слова: производство, здоровая конкуренция, устойчивое развитие, экономика предприятия, национальная экономика, человеческие ресурсы, принцип 3R.***

***Zaur Adalat Asadzade***
***Azerbaijan Cooperation University***
***doctoral student,***
***zaur.esedzade.1130@gmail.com***

**Competitive production leads to sustainable development**

***Summary***

**The aim of the research is** – to develop directions for the development of competitiveness in production in order to ensure the sustainable development of economic entities, and therefore the country's economy.

**Methodology of the research** – a systematic and complex approach, induction and deduction methods were used during the research, as well as the impact of production areas on economic development was comparatively analyzed from various aspects and relevant generalizations were made.

**The significance of the research** – the obtained results, proposed proposals and recommendations can be used in solving theoretical and practical problems, as well as in the development of production areas.

**The results of the research** – consist of the development of proposals and recommendations on ensuring competitive production, taking into account the realities of the modern world economy, the trends occurring in the global space, and the economic capabilities of the country.

**The originality and scientific novelty of the research** – the importance of the role of managers in terms of production efficiency is emphasized in the article, and the extent to which the country's economy develops with the provision of competitive production in 15 countries is shown in a table. The substantiation of the necessity of competitiveness for sustainable development and the extensive analysis of competitive production as a condition for sustainable development represent the originality of the research.

***Key words: production, healthy competition, sustainable development, enterprise economy, national economy, human resources, 3R principle.***